*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 335-342* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.335*

# İslam intibahı dövründə musiqi mədəniyyətinin təşəkkülü

**Elmira Axundova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Annotasiya.** Məqalədə İslam intibahı dövründə elmi biliklərin sürətlə inkişaf etməsindən, antik mədəniyyət qaynaqları əsasında qələmə alınan fəlsəfə, riyaziyyat, astronomiya, ədəbiyyat və musiqi elmlərinin tarix səhnəsinə çıxarılmasından bəhs edilir. Bu illərdə nəzəri incəsənətdə "ərəbdilli" musiqi ədəbiyyatı, Yaxın və Orta Şərqdə yayılmağa başlayan musiqi sənəti və onun elmi qaynaqlarda ifadəsi əsas olmuşdur. Musiqi nəzəriyyəsi yaradıcılarının bir çoxu ərəb kökənli olmasa da, bu incəsənət məbədgahında onların hər biri – əl-Fərabi (IX-X əsrlər), əl-İsfahani (X əsr), Səfiyəddin Urməvi (XIII əsr) və əl-Marağai (XIV-XV əsrlər) İslam mədəniyyətinin parlaq təmsilçiləri kimi tanınmışlar.
X yüzillikdə musiqi camiəsində zəhmət çəkən İslam alimlərinin fəlsəfi düşüncələrinin zamanla istiqamət dəyişməsi onların yenilənən mülahizə və fərziyyələrilə müşayiət olunurdu.
**Açar sözlər:** İslam intibahı, musiqi mədəniyyəti, maddi-mənəvi dəyərlər

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2023; qəbul edilib – 27.02.2023

# Formation of musical culture during the Islamic Renaissance period

**Elmira Akhundova**
Doctor of Philosophy in Art History

**Abstract.** In the article is dealt with the development of scientific knowledge rapidly during the Islamic Renaissance period, the pass of philosophy, mathematics, astronomy, literature and musical culture written with ancient cultural resources to history scene. The main expression of music art and its scientific resources, which started to spread in the Near and Middle East was music literature "in Arabic language" in these years. Although many creators of music theory were not of Arab origin, each of them – Al-Farabi (IX-X centuries), Al-Isfahani (X century), Safiyeddin Urmaviy (XIII century) and Al-Maraghai (XIV-XV centuries) were a prominent representatives of Islamic culture in this temple of art.
The philosophical thoughts of Islamic scholars who worked extensively in the musical field in the 10th century were accompanied by their new considerations and assumptions.
**Keywords:** Islamic Renaissance, musical culture, material-spiritual values

**Article history:** received − 03.02.2023; accepted − 27.02.2023

## Giriş / *Introduction*

İslam mədəniyyətinin – maddi-mənəvi dəyərlərin, düşüncə, sənət və biliklərin inkişafı Abbasi xanədanlığı dövrünə (750-1258) təsadüf edir. Yaxın Şərqdə aramsız davam edən çəkişmələr Əməvilər xilafətinin süqutu və Hz.Mühəmməd soyuna mənsub olan qureyşli Abbasilərin hakimiyyətə gəlməsi ilə nəticələndi. Yaxın və Orta Şərqi yerindən oynadan, müdaxilə, tərəqqi və rəqabəti qəbul etməyən bu hakimiyyət dəyişikliyi yaxınlaşan mədəniyyət yüksəlişi ilə müşayiət olunurdu. Bu hərəkətlənmədə yüzillərlə cəmlənib, mövcud elmlərə nüfuz etmiş tükənməz imkan və qabiliyyətlər yazılı qaynaqlar işığı ilə parlamağa başlayırdı. Yalnız dini kitablarla hafiz yetişdirən mədrəsələr tədricən daha çox fənlərin tədris edildiyi qurumlara – Məktəb, Rəsədxana, Dar əl-Qur'an – Quran təlimi mərkəzinə, Şəfaxana – Tibb ocağına, Beyt əl-hikmə – Elm birliyinə, Dar əl-had – düşünürlər evinə, Dar əl-Kitab – ədəbi məclislərə çevrilirdi.

İslam intibahı dövründə elmi biliklər sürətlə inkişaf edir, antik mədəniyyət qaynaqları ilə qələmə alınan fəlsəfə, riyaziyyat, astronomiya, ədəbiyyat və musiqi sənəti tarix səhnəsinə yerləşirdi.

## Əsas hissə / *Main Part*

Ərəb, fars və türk mənəvi dəyərləri, qədim Bizans (395-1453) və Sasani (226-651) sivilizasiyalarının birləşməsi ilə inşa edilən İslam mədəniyyəti bir-birinə təsirsiz qalmayan bir çox ənənələri üzə çıxarmış, IX-X əsrlərdə Şimali Hindistandan Qərbi Avropanın cənubuna qədər imperiyalar tarixinə qədim coğrafiyalar kimi daxil olan Misir, Xorasan, Məğrib və Andalusiyanı öz təsiri altına almışdı. Xilafətin mərkəzi sayılan Hələb və Bağdadda sürətlə irəliləyən musiqi mədəniyyəti çalışmaları bu incəsənətin məzmun bütövlüyünü tamamlayırdı.

Dövrün bədii həyatını əks etdirən əlamətlərdən biri saray zəkaları və ya yaradıcı şəxslərin təşkil etdiyi müxtəlif elm və ədəbiyyat mövzularının müzakirə olunduğu bədii qiraətin, qəsidələrin, öncədən bəstələnmiş, yaxud bədahətən ifa edilən musiqilərin səsləndiyi "məclislər" idi [11, s.28].

Bu illərdə nəzəri incəsənətə yerləşən "ərəbdilli" musiqi ədəbiyyatı, Yaxın və Orta Şərqdə yayılmağa başlayan musiqi sənəti, onun elmi qaynaqlarının başlıca ifadəsi idi. Musiqi nəzəriyyəsi yaradıcılarının bir çoxu ərəb kökənli olamasa da, bu incəsənət məbədgahında onların hər biri – əl-Fərabi (IX-X əsrlər), əl-İsfahani (X əsr), Səfiyəddin Urməvi (XIII əsr) və əl-Marağai (XIV-XV əsrlər) İslam mədəniyyətinin parlaq təmsilçiləri idi.

X əsrin birinci yarısında "sənət" qavramı, mənəvi cizgilər artıq musiqi biliciləri, səs və alət ifaçıları vasitəsilə dərk edilirdi. İslam alimləri yunan bilikləri və fəlsəfənin təsirinə düşsələr də, mövcud elmləri öz mədəniyyət və düşüncələri ilə zənginləşdirir, yeni musiqi ədəbiyyatları yaradırdılar.

İxvan əs-səfa (X əsr) – İxvan əs-səfa vua hillan-əl vafa (fəlsəfi düşüncə qolunun təzahürü – filosof, riyaziyyatçı və musiqi nəzəriyyəçiləri birliyi) öz risalələrində "hər xalqın özünə zövq verib, sevgi bəxş edən, lakin yayılmayan nəğmələri, musiqi ifaları çoxdur. Bir-birilərinə yaxın olub, fərqli dildə danışan, müxtəlif adət-ənənəyə sahib millətlərin xalq musiqiləri bu xassələri ilə böyük önəm daşıyır" – kimi bənzər ifadələrə diqqət çəkmişdir [4, s.51].

Əbü`l-Fərəc əl-İsfahaninin (897-967) "Nəğmələr kitabı"nın şərhlərindən məlum olur ki, dövrün müğənni və çalğıçıları ifaçılığın yerli, milli tərzini mənimsəyib, ustalıq əldə etmişlər. Onların əsas amalı bu yeni üslubları ərəb musiqisinin təbiətilə, dastani (epik) və rübabi (lirik) ədəbi söz sənətilə uzlaşdırmaq idi [5, s.24].

Hələ VIII əsrdə musiqini özünə peşə seçən Səid İbn Miscah (VII-VIII əsrlər) dövrün mədəniyyət mərkəzlərindən olan Suriyaya getmiş, bu diyarda Bizans xalq nəğmələrini öyrənməklə yanaşı, fəlsəfi öyüdlər də dinləmişdir. İfa təcrübələrini kamilləşdirmək məqsədilə bu dəfə İrana üz tutan musiqişünas orada müğənni və müşayiətçilik sənətinə yiyələnmişdir. Qonaq olduğu ölkələrdə eşitdiyi musiqilərə diqqət edən

gənc sənətçi Hicaza qayıtdıqda, ərəb nəğmələrində səslənən yad – Bizans və fars çalarlarından tamamən imtina edib, bütün musiqiçilərə örnək olmuşdur. Miscahın şagirdi – Müslim ibn Mühriz də kamil müğənni olmaq arzusu ilə Suriya və İrana səyahət etmiş, bir müddətdən sonra ərəb şeiriyyəti ilə birləşən musiqi parçalarının, daha öncə heç səslənməyən, qəlb oxşayan nəğmələrin müəllifi kimi tanınmışdır [13].

İslam intibahının gerçəkləşdiyi bir dövrdə yaşayıb-yaratmış Yaqub ibn İshaq əl-Kindi (801-873) elm və sənət sahəsindəki bilgiləri ilə özündən sonra gələn bir çox zəka izlərinə işıq salmışdır. Əsaləti, mənəvi zənginliyi və çalışqanlığı sayəsində musiqi elminə dəyərli əsərlər bəxş edən əl-Kindi ərəb musiqi incəsənətinin qurucusu və təmsilçisi idi. Özünə qədər səslənən musiqi nümunələrini mükəmməl iş kimi qəbul etməyən ustad musiqi bəstələrinin ilk qanunlarını yaratmış və bunu dövrünün mədəniyyət anlayışına sığdırmışdır.

Elmi biliklərin vüsət aldığı bir zamanda musiqi incəsənətinin çoxsahəli şərhləri Şərq bilicilərinin "Muallim-i Avvual" dedikləri Aristotelin davamçısı olan Abu Nasr əl-Fərabi (870-950) tədqiqatları və açıqlamaları ilə önəm qazanırdı. Antik yunan dühaları – Aristotel, Femistius və Öklid əsərlərinin mütaliəsi ilə yetişən, zəngin bilik qaynaqlarını tərcümə edib, onları müfəssəl, fəlsəfi şərhlərilə tamamlayan əl-Fərabinin musiqi tarixində günümüzə qədər müstəsna bir yeri vardır. O, nəzəri musiqi bilgilərini, özəlliklə bu sənətin fəlsəfi məntiqini dilə gətirib, risalələrində təsvir olunan çalğı alətləri qrupuna yalnız (ərəb alətləri) – ud, rebab, qanun, mizmar, Bağdad tanburu deyil, Orta Asiya və İran alətlərini də (şahrud, Xorasan tanburu) daxil etmişdir [2, s.158]. Əl-Fərabinin musiqi tədqiqatlarında bu sənətin etnik özünəməxsusluğu onun risalələrində çeşidli növ mənbələri ilə izlənilirdi. Bu təcrübələrdə daha çox ənənəvi ərəb nəğmələri dəyər qazansa da, ifaçılıq nümunələri kimi fars və türk milli melodiyalarından, yeni sənət üslublarından geniş istifadə edilmişdir.

Orta əsrlərdə İslam cəmiyyətinə daxil olan ali-dini, yerli-köçəri mühit və mədəniyyətlər, müxtəlif yaşam şərtləri – musiqi incəsənətinin ictimai təyinlərilə idarə olunur, xilafət saraylarında, peşəkar nəğmə və ifa sənəti inkişaf edir, bədii zövqlər və sənət qavramı müəyyənləşirdi [12, s.19].

Musiqinin mənəvi sahəsi İslamın ibadət musiqisilə tərənnüm olunurdu. Müsəlman qaydalarında bu xüsuslar "mu`si`qa" və "ğina" anlayışlarından fərqlənən dini ayinlərin özəl ("mağbir" – Quran oxunması "azan" – namaza çağırış, "məhlil" və "məlbiyya" – mədhetmə) məna və qanunları ilə müəyyənləşmışdi [8, I s.37].

Abbasilər dövründə irqi ədavət və nifaqlardan uzaq olan musiqilərə müxtəlif folklor ifa növləri daxil idi. İslam qanunları ilə yetişən musiqiçilər – müğənni, kölə, azad hüquqlu xanəndə və mükəmməl ifaçı dərəcələrinə bölünürdülər.

IX-X əsrlərdə təşəkkül etmiş fəlsəfi, dəqiq və kainat bilikləri, eləcə də musiqi incəsənəti mövcud dövrün elmi tədqiqatları, əməli və nəzəri fikir mübadilələrilə ortaya çıxırdı. "Cahiliyyə" dövrünün qədim rəvayət və əfsanələri, istila olunmuş, mənimsənilmiş müxtəlif xalq mədəniyyətləri, orta əsrlərin təfsir və şərhləri ilə şəkillənən sənət qaynaqları VII əsrdən etibarən İslam mədəniyyətinə nüfuz edən ədəbi dil – ölçülü nəzm (şeir, qəzəl, qəsidə), vəzni qafiyəsi və rədifi olmayan nəsr yaratmışdır [15, s.54]. Artıq şifahi ənənələrlə meydana gələn məhdud musiqi anlayışları yazılı qaynaqlara, nəzəri musiqi risalələrinə doğru istiqamətlənirdi.

Orta əsrlərdə musiqi mədəniyyətinin vacib mövzularını əks etdirən əl-Fərabinin "Kitəb əl-musiqa əl-kəbir" risaləsi yeni xilafət dövründə təşəkkül etmiş mədəniyyət təsəvvürləri və İslamaqədərki mövcud ənənələrlə yaranan kamil musiqi bilikləri idi. Dövrün ilk əlyazmalarında əks olunan fəlsəfi və nəzəri düşüncələrin əksəriyyəti çoxallahlılıq mühakimələrinə, o cümlədən inkişaf etməkdə olan İslam mədəniyyətinin qəbuledilməzliyinə məruz qalırdı. "Cahiliyyə" dövründə bəsit çalğı alətləri ilə incələnib, meydana çıxan səs yüksəkliyi "mükəmməl səs sistem"i (əl-cam` əl-ka`mil) təəssüratı yaratsa da, əl-Fərabi bu təcrübəni "natamam" və "qeyri-mükəmməl" (an-nakis) keyfiyyətlərlə səciyyələndirmişdir [14, s.12].

Dövrün mövcud mədəniyyətilə inkişaf etməkdə olan bilik sahələri, İslam çevrəsinə yerləşən musiqi anlayışları dini mülahizələrlə ifadə

olunurdu. Bu məfhumların təməlində Allah-Təalanın nazil etdiyi “Qurani-Kərim” və “Ey ürəyilə deyil, yalnız dili ilə iman gətirənlər birliyi!”, – deyən Rəsul (Nəbi`l) və onun inanc-fəaliyyətilə bağlı təfsirlər yer alırdı. Musiqi dinləmə, yaxud sənətlə məşğulolma İslam dini və onun nizamlı qanunları ilə təsis olunurdu. Başqa sözlə, ibadət avazları, məbəd – səmavi nəğmələri istisna, musiqiyə “aludeyi-dərd” olmanın bütün növlərinə qadağa qoyulmuşdu.

Müsəlman ilahiyyatçıları və qanunvericilərinin musiqi əleyhinə səsləndirdikləri hər iki fərqlilik – əski mədəniyyət irsi və saray incəsənəti (musiqi alətləri, rəqs və nəğmələr) günahkar həyat tərzinin əlamətləri kimi dəyərləndirilirdi. Musiqidə mövcud olan keçmiş və mütərəqqi anlayışlar İslam musiqisinin bədii üslubunu (özünəxas amilləri ilə avazın – səsin, Quranı təfsir, bəyan edən ilahi müfəssirini) və ibadət musiqisinin özəlliyini müəyyən edirdi.

Sözügedən tarixlərdə yayılmaqda olan çalğı və səsli-nəzm incəsənəti (“əl-ğina”) ilə musiqinin həm bədii, həm də əməli təqdimat (qələmə alınma) şərtləri təkmilləşirdi. Mövcud incəsənət üsulları ərəb ədəbiyyatının bədii qanunları ilə ayrılmaz surətdə bağlı idi. İslam mədəniyyətinin ilk çağlarında nəğmə sənətinin inkişafını nümayış etdirən – Mənsur Zəlzəli (VIII əsr), İbrahim və İshaq əl-Mousili (VIII – IX əsrlər), İbrahim əl-Məhdi (IX əsr) və Abu Ziryab (IX əsr) öz axtarış və tədqiqatları ilə şəkillənəcək ifaçılıq ənənələrini genişləndirirdilər.

Əbü`l-Fərəc əl-İsfahaninin “Nəğmələr kitabı”nda şövqlə söhbət açdığı keçmiş və yeni dövrün nəcib sənəti – “nəğmə şöləni” və müğənni yarışmaları, əslində, xilafətin genişlənməkdə olan bədii baxışlarını əks etdirirdi. Bu mənada İsfahaninin Harunü'ər-Rəşid dövründə keçirilən xüsusi nəğmə müsabiqəsində yüz nəğmə arasında öz bəstə və ifa üslubu ilə seçilən şair və müğənninin əməyilə ərsəyə gəlmiş üç nəğmədən bəhs etməsi olduqca maraqlıdır. Belə mərasimdə səslənən musiqi parçaları ərəb nəğmə üslubunu əks etdirməklə yanaşı, fərqli şeirlər məcmusunun amalını da nümayiş etdirirdi [5, s.33].

İslam mədəniyyətinin genişlənməsilə əməli (instrumental) musiqi biliklərinə əlavə olunan musiqi təlimləri şifahi ənənə yolu ilə müəllimdən şagirdə ötürülsə də, bu biliklər yazılı mənbələr, ustad tövsiyələri, elmi şərhlər və seçilmiş nəğmələrlə müəyyənləşirdi.

Hicrətin (622-ci ildə İslam təqvimi ilə Mədinə dövlətinin yaranma tarixi) II yarısında İslamın bərqərar olduğu bölgələrdə elm, mədəniyyət toxumları bir şəkildə atılmağa başlamışdı. Müsəlmanların sonsuz dəyər verdikləri ümumi hüquq və davranışları nəql edən – “fikih, təfsir, hədis” bilgi və bəyanlarla yanaşı, fəlsəfə, riyaziyyat, astronomiya, tarix və musiqiyə böyük maraq duyulurdu. Bu bilik sistemilə məşğul olan parlaq zəkalar üləmaların (din xadimlərinin) müxalifətinə hədəf olsalar da, sahib olduqları haqlardan yararlanıb, araşdırmalar edir, yeni bilik və məlumatları ətrafları ilə paylaşırdılar.

Musiqi mədəniyyətinin inkişafı ən çox xəlifə, əmir və maariflənmiş adlı-sanlıların – incəsənət dəyərləndiriciləri, tanınmış şair, müğənni və çalğıçılarla əhatə olunan himayəçilərlə idarə edilirdi. Saraylarda qurulan “məclislər” – elm və düşüncənin məhsulu olan mövcud kitablar haqqında fikir söyləyən, şeir deyib, yeni bəstələrini səsləndirən saray ziyalıları və yaradıcı seçkin zümrələrin təşkil etdiyi sazlı-sözlü yığıncaqlar idi [11, s.29].

İlk zamanlar bu məclislərə gizli sızan “musiqi sənəti” Abbasilər dövründə saraylara aşikarana qədəm basdı. Dini hökumət qanunları ilə idarə edilsə də, farsların “Gündişapur” elm ocağının təsirindən uzaq qala bilməyən hakim iqtidar fars, yunan, Mesopotamiya mədəniyyətindən faydalanmaq naminə Bağdadda (832) “Beyt-əl hikmə” adlı elm və bilik mərkəzi inşa etdirdi. Bu biliklər evi, başqa sözlə, “Böyük Bağdad Kitabxanası”nın ən önəmli vəzifəsi inkişaf etmiş millətlərin maddi-mənəvi mədəniyyət və dəyərlərini incələmək, ilahiyyət, dini-əxlaqi, nəzəri-məntiqi bilikləri İslam mədəniyyəti ilə uzlaşdırmaq, İslam dininin təməlini təşkil edən – bərabərlik, qardaşlıq, maddi-mənəvi dəstək xüsuslarına elmi, mədəni və ictimai zənginliklər qatmaq idi. Burada riyaziyyat, fəlsəfə, kainat bilikləri, əxlaqi dəyər və davranış hökmləri, İslami (fəzilət, səciyyə və təbiət) qaynaqlarla birləşən bilik sistemi yaranarkən musiqi nəzəriyyəsinə dair kitablar da diqqətə alınır, onların da tərcümələri gerçəkləşirdi. Musiqini sa-

dəcə əyləncə deyil, digər şaxələnmiş elmlər kimi qavrayan alim və filosoflar bütün bilikləri sinifləndirərkən, Yaradanın töhfəsi olan musiqinin elmi məzmununu da öyrənməyə çalışırdılar.

Artıq musiqiyə daxil olan müxtəlif düşüncə və yanaşmalar geniş, rəngarəng mövzuları, incəsənət növlərini əks etdirə bilirdi. İslam mədəniyyətinin uğurları qədim ənənələrin ərəb lüğəti sayəsində genişlənir – bədii, elmi, tarixi mənbələrə söykənən biliklər və dini nəzəriyyələr özündə ədəbi yeniliyin izlərini daşıyırdı. Musiqi biliklərinin risalələrdə toplanması onları qələmə alan müəlliflərin kamil filosof, nəzəriyyəçi, tarix və ədəbiyyat mütəxəssisi olmalarından qaynaqlanırdı. Yaranan nəzəri musiqi əsərlərinin böyük çoxluğu "ədəb" ədəbiyyatına meyillilik nümayış etdirirdi. İslam mədəniyyətinə daxil olan "ədəb" – mənəviyyat və əxlaqi keyfiyyətlərin, tarixi-ədəbi əsasların, ənənəvi ərəb mədəniyyətilə maariflənmənin təcəssümü idi [6, s.72]. "Ədəb" mənbələri arasında daha çox duyğulu, təsirli şeirlər və nəğmə mövzuları yer alırdı. Ərsəyə gələn ilk risalələr yeni mədəniyyətin inkişafı, ədəbi yaradıcılıq və elmi məlumatlarla zənginləşən ərəb divanları idi.

Mövcud biliklər təkmilləşdikcə, Abbasilər xilafətinə daxil olan bütün bölgələrdə elmə diqqət yetirilir, nəzəriyyəçi-alimlərə müavinətlər kəsilirdi. Onların xidməti qazancları xanədan məmurlarına nəzərən çox aşağı olub, mövcud səbəblərlə xilafət xəzinəsinin cüzi bir hissəsini təşkil edirdi. XII əsrin sonlarında yaşamış İbn Attab öz dövründə cərəyan edən hadisələri belə dilə gətirir: "Ayda altmış dirhəm müqabilində sərf, nahiv, əruz, hesab, Quran və ədəbiyyatı kamil bilən bir alim tapmaq mümkün olduğu halda, yalnız gözəl söz söyləməsini bacaran bir üləma (din xadimi) yüz dirhəm maaş alırdı" [3, s.128].

IX-X əsrlərdə "Beyt-əl hikmə" – "hikmətlər evi"ndə dəqiq və məntiqi elmlərlə yanaşı, qədim yunan mənbələrinin ərəb dilində gerçəkləşən müfəssəl tərcümə və şərhləri İslam alimlərinin öz sələflərinə duyduğu sonsuz marağın göstəricisi idi: Aristotelin "Sorğu və zərurət", Aristoksenin "Ahənglilik" (Harmoniya), "Ritmlər", Evklidin (Öklid) "Qanunlar", "Ahənglər", Nikomaxın (Nikomakhos) "Böyük musiqi kitabı" və bir çox başqa möhtəşəm əsərlər söylənənlərə bir dəlildir. Bu gün bu dəyərli əsərlərin tərcümə və şərhləri tarixi mənbələrdə mövcud olmasa da, musiqişünas alim və bəstəkar H.C.Farmerin təbirilə, Yaxın və Orta Şərq dühaları – Əl-Fərabi, İxvan əs-səfa qardaşları, əl-Xarizmi, İbn Sina, İbn Zayla, Səfiyəddin Urməvi və Qütb ad-Din Şirazi öz cidd-cəhdləri və inanılmaz səyləri ilə bütün elm dünyasına antik yunan elmlərinin necə öyrənilməsini nümayış etdirdilər.

İslam alimlərinin bu "hikmət və fazillik ocağında" apardığı sərbəst elmi tədqiqatları bir çox cəhətdən yunan-hellenestik (miladdan öncə Romanın son 30 ili arasındakı böyük imperatorluq dövrü fəlsəfəsi) mətnlərin davamı idi.

Musiqiyə aid mövzuları işıqlandıran mütəxəssislər eyni anda biliyin bir neçə – fəlsəfə, riyaziyyat, fizika, astronomiya sahəsi üzrə çalışır, musiqi mövzularını həm mətni tədqiqatlarla, həm də ümumi bilik sisteminə daxil olan şərtlər və elmi lüğətlərlə təhlil edirdilər. IX-XI əsrlərdə bu ənənə ardıcıllığı daha çox fəlsəfə tədqiqatçılarının yaradıcılığında təzahür olunurdu [12, s.55]. Əl-Fərabinin "Elmlər təsnifatı", əl-Xarizminin "Biliklərin açarı", İxvan əs-Səfanın X əsrdə öz dərin mülahizə və fəlsəfi şərhlərini "risalələr" adı ilə əlli iki kitaba yerləşdirən alim, filosof və sufilərin – Zeyd ibn Rufaa, Qaza'li və İbn Arabinin birləşən düşüncələri, yenə də İxvan əs-Səfa və İbn Sinanın məcmuələr toplusu, həmçinin "Qurtuluş" kitabı xüsusi musiqi bölümləri olan məşhur əsərlər arasında yer alır.

Orta əsrlərdə formalaşan nəzəri fəlsəfə üç anlayışla – ilahiyyət, təbiət və ikisinin arasında yer alan riyaziyyatla müəyyənləşirdi. Riyaziyyat özündə hesab, həndəsə, astronomiya və musiqini birləşdirirdi.

İslam alimlərinin tədqiqatlarında musiqi və onun təsir mövzuları bu sahədə onların hər birinin özünəməxsus tətbiq üsulları, elmi və fəlsəfi baxışları ilə təcəssüm olunurdu.

Bu tarixlərdə inkişaf edən musiqi elminin səciyyəvi əlamətləri həm də İslam alimlərinin tədqiqat hədəflərini, mövcud musiqi mədəniyyətinin məhdud ənənə və üslublarını müəyyən etmiş olurdu. Musiqi elmində əks olunan məlum və mücərrəd mənbələr, sənət əsərlərinin mühüm təfərrüatları – musiqiyaratma və ifaçılığın təhlil mövzuları, dövrün bilik mənbələri,

alətşunaslıq və musiqi tədrisi – makam (lad), jaman (qamma), fa`sila (interval) və `iikae (ritm) mövzuları ilə açıqlanırdı [14, s.14]. Orta əsrlərdə inkişaf etməkdə olan musiqi nəzəriyyəsi İslam alimlərinin mücərrəd biliklər və əməli fəaliyyətlərilə, imkan və təşəbbüslərilə, elmi çalışma və ifaçılıq sənətinin qaydaları ilə müəyyənləşirdi.

Sözügedən illərdə musiqi elmi artıq bu sahənin təsisçiləri – alim və tədqiqatçıların təşəbbüsü ilə riyaziyyatın bir qolu kimi qəbul olunur və mükəmməl təfsirlərlə açıqlanırdı. Antik elmi məcmular ardıcıllığı ilə mənimsənilmiş musiqi biliklərinin öyrənilməsi, zəngin musiqi risalələrinin tərcümə və şərhləri elmi tədqiqatlarla incələnir, musiqi qaynaqları ona yaxın elmlər daxilində yer alırdı.

Orta əsrlərdə İslam mədəniyyətinin əsasını təşkil edən bütün fənn biliklərinin fəlsəfi təhlilləri kimi digər sahələrin – dini, bədii, hüquqi və ədəbi yaradıcılığında müəlliflərin dünyagörüşü, onların ifadə mövqeləri qiymətləndirilirdi [12, s.60].

Biliklə bağlı mənbə və məlumatlar şəriətdə "öyrənmə istəyi" kimi yer almış, "müsəlmanın vəzifəsi" kimi elan edilmişdir. "Bilik" özlüyündə iki istiqamətlə – Qüdrətli Yaradanı vəsf edən ilahi və dünyəvi (dini etiqad, təzim, səcdə) nəzəriyyələrlə tamamlanırdı. Orta əsrlərin İslam mədəniyyətində dini dəyərlərin təcəssümü olan "elm", yaxud "bilgi" anlayışları İslamın bütün bilik sahələrini (yüksək ədəb və dini bilikləri) yalnız bu məfhumların çeşidli mülahizələrilə deyil, bəzən bir-birini inkar edən – müqəddəs müsəlman ənənələrindən, ictimai əxlaq qanunlarınadək, fövqəltəbii aydınlatmadan, mücərrəd məntiqi-fəlsəfi təhlillərə qədər olan bir mövzunu əhatə edirdi [9, s.27].

IX-X yüzilliklərdə müfəssəl tədqiqatlarla incələnib, mənimsənilən, antik musiqi elmlərinin təsiri ilə yaranan təkmil nəzəriyyə və ixtiralar ümumilikdə musiqi incəsənətinə xidmət edib, bu sahənin ardıcıl nəzəri qaynaqlarını dərinləşdirib, onun mütərəqqi düşüncələrini genişləndirmişdir. Bu tarixlərdə təməli qoyulan "musiqi bilikləri" artıq əfsanə, nəzm, dini ehkamlar, yaxud musiqinin bədii təqdimatı ilə deyil, bu "bilik" anlayışının yeni nümunələrilə yaradılmış "qavrama əsasları" ilə müəyyənləşirdi. Açıqlanan musiqi mövzularının bəlli üsulları nəzəri izahlar və fərqli şərhlərlə – alimlərin fərqli tədqiqat və təhlilləri, mövcud bilik sistemi, nəzəri düşüncə və elmi dəlillərə əsaslanan mülahizələri ilə əks olunurdu [13].

Bu yüzilliklərdə zamanla irəliləyib, yenilənən ənənələr təqribən bütün filosof-alimlərin yaradıcılıq fəaliyyətlərinin başlıca mövzusu idi.

Əl-Xvarizminin "Biliklərin açarı" və əl-Fərabinin "Biliklərin təsnifatı" risalələrində musiqi fəsilləri fizika, riyaziyyat, həndəsə fənlərinin dəqiq qaydaları ilə tədqiq edilmişdir. İbn Sinanın "Şəfa kitabı"ında musiqi nəzəriyyəsi məntiq və riyaziyyatla bir sırada yer almış, İxvan əs-Səfa ("İxvan as-safa vua hillan əl-vafa" cığırının tərəfdarları) risalələrində musiqi şərhləri riyaziyyat bölümlərinə daxil edilmişdir. Bu əsərdə fəlsəfi şərhlərlə təqdim edilən musiqi bilgiləri təfsilatlı, müəzzəm bir elmin, musiqi sənətinin mövqeyi və onun təyini idi [6, s.78].

Musiqi nəzəriyyəsini məntiqin bir növü kimi dəyərləndirən, bu nəzəriyyənin bir çox bilik sahələri ilə əlaqə yaratmasını qəbul edən İbn Sina "makam (lad) və `iikae (ritmlə) bağlı hasil olan iki tədqiqatdan biri digər elmlərin (hesab, fizika və bəzən həndəsə) daxilində zühur edir"– deyə qeyd etmişdir [13].

Musiqini fizika, kimya və astrologiya elmləri ilə birgə araşdıran əl-Kindi "onu" həm təbii, həm də daha uca meyarlarla uzlaşdırıb, udun dörd simi ilə yaranan səslənməni öncə sonsuz göy üzü ilə nisbətləmiş, daha sonra təbiət qanunlarına – bürclər, ilin fəsilləri, günün saatları, insan vücudu və onun ruhuna istiqamətləndirib, "Vücud-i musiqi insanın xəzineyi eşqindən bir əsrardır", – demişdir.

Yenə gözəllik anlayışı və bədii düşüncələrilə musiqini vəsf edən əl-Kindi öz tədqiqatlarında musiqi ahəngi, çiçəklər və onların qoxuları ilə yaranmış bağlılığa diqqət çəkib: "Sonuncular özlüyündə "səssiz musiqi" yaradır, qoxuların bir qismi – güc və əzəmət, digərləri – sevinc və səadət, bir digəri– üzüntu və kədər ifadə edir" [10, s.29], – deyə bildirmişdir. İxvan əs-Səfa düşüncə birliyi bu elmi tədqiqatlara – fəlsəfi şərhlər, qədim səmavi nəğmələr və dini məntiqlə əhatə olunmuş bir çox qapalı sözlərə açıqlıq gətirmiş, "sahələrin (mühit – günəş, ay, hava,

su torpaq) ahəngi (harmoniyası)" fərziyəsini müdafiə etmişdir.

İslam intibahının nailiyyətlərilə genişlənən fəlsəfi biliklər, təcrübi əsaslar və dəlillərin məntiqi ifadəsi, kainat, təbiət, cəmiyyət qanunları ilə bağlı meydana gələn elmi təqdimatlar tədricən "fəlsəfə" anlayışı ətrafında birləşirdi [1, s.50]. Dövrün gerçək bilikləri öz fəlsəfi mövqeyi ilə musiqi elminə nüfüz etdikcə, bütün xəyali və gerçək olmayan kainat fərziyyələri əvvəlcə əl-Kindi və İxvan əs-Səfa birliyinin inkar təfsirlərinə, daha sonra əl-Fərabi və İbn Sinanın tənqidlərinə məruz qalırdı. İbn Sina özünə qədər mövcud tədqiqatlardan fərqli olaraq, səsi – hisslərlə dərk edilən cisim (maddə) olaraq səciyyələndirir, duyulan, hiss edilən bu səsləri ruhun özülü kimi deyil, hissi halları təqlidetmə, ötürmə bacarığı və "Vücud iqliminin sultanı"nı – cismin hüzur və hərarətini tənzimləyən "şəfa" kimi təqdim edirdi.

X yüzillikdə musiqi camiəsində bu sənət yolunda zəhmətsevər İslam alimlərinin fəlsəfi düşüncələrinin zamanla istiqamət dəyişməsi onların yenilənən mülahizə və fərziyyələrilə müşayiət olunurdu.

Belə ki, musiqi elmində yer alan təkmil təfsirlər, sənət meyarları və fərqli təhlilləri ilə yaranan bilgi ardıcıllığı dövrün filosof-alimlərinin yeni tədqiqat və şərhlərilə müəyyənləşirdi.

Orta əsrlərin elmi-nəzəri tədqiqatlarını incələyən mütəxəssislər, Şərq mədəniyyətilə bütünləşən, "təsdiq və inkar" müddəaları ilə mükəmmələşən İslam fəlsəfəsi və ilk filosofların (əl-Kindi, İxvan əs-Səfa qardaşları, əl-Fərabi və İbn Sina) əsaslı bilikləri, onların müəyyən elm sahələri haqqında yürütdükləri mühakimə və bəyanları, risalələrə intiqal etmiş şərhləri ilə qarşılaşırlar. Bu bilgilər yalnız dini-inancları əks etdirən mülahizələrlə deyil, həmçinin İslami əxlaqla, antik fəlsəfənin təsir və istiqamətilə, dil, məntiq, üslub mədəniyyətinin qavramı ilə yaradılmış və fərdi keyfiyyətlərin, elmi təcrübələrin, məntiqi biliklərin inkişaf qanunları ilə bərqərar olmuşdur [7, s.46].

## Nəticə / *Conclusion*

Orta əsrlərdə musiqi incəsənətinə nüfüz edən müxtəlif elmi baxışlar, fəlsəfi təhlillər və fərqli nəzəriyyələr özlüyündə təzad yaratsa da, dərin sənət qaynaqları, bədii mədəniyyət qanunları bu anlayışın elmi-nəzəri əsaslarını, onun təkamülünü və müstəsnalığını müəyyənləşdirmişdir.

## Ədəbiyyat / *References*


1. Allah Virdi, M.K. Falsafa əl-mu`si`ka əş-Şarkiyya fi`əsra`r əl-fənn (Sənət sirlərində Şərq musiqi fəlsəfəsi) – Dəməşq, 1948.
2. Bədəlbəyli, Ə. İzahlı monoqrafik musiqi lüğəti. – Bakı: Elm, 1969.
3. Köprülü, Fuad. Divan Edebiyatı Antolojisi. (Orta Çağlar) – Ankara, Akçağ Yayınları, 2006.
4. İhvan, əs-Səfa. Ər-risala fi`l mu`si`кa (Musiqi risaləsi) H.C.əz-Zarklinin red. I hissə. – Qahirə, 1928.
5. İlyas, Uçar. Ebu`l Ferec el-İsfahaninin "El-Ağani" Risalesi. (Bir Kültür Üzerine İncələmələr) – Türkiye Diyanet Vakfı, Mec., Sayı 73.
6. Mahfuz, Hüseyn Ali. Mucam əl-мusiqa əl-arabiyyə (Ərəb musiqi lüğəti). – Bağdad, 1964. Süleyman Uludağ. İslam ve Musiki., Bayram Akdoğan. İslam ve Musiki Sanatı. Makale, İncelemə, Araştırma. Özəl sayısı: I-1275 s.; II-1288 s. – Ankara: Yeni Türkiye Yayınları, 2014.
7. Mahmud, Kaya. İslam Filosoflarından Felsefe Metinleri. – İstanbul: Kitapyurdu 2014.
8. Süleyman, Uludağ. İslam ve Musiki., Bayram Akdoğan. İslam ve Musiki Sanatı. Makale, İncelemə, Araştırma. Özəl sayısı: I-1275 s.; II-1288 s. – Ankara: Yeni Türkiye Yayınları, 2014.
9. Şahin Filiz. İslam ve Felsefe. – İstanbul: Say Yayınları, 2014.

10. Zuheyr Yusif. Mu`allafat Əl-Kindi fi al-mu`si`ka (Əl-Kindinin musiqi təfsirləri). – Bağdad, 1962.
11. Мец, А. Мусульманский Ренессанс. Восточная литература. – Москва: Наука, 1973.
12. Даукеева, С.Д. Философия музыки Абу Насра Мухаммада аль-Фараби. – Алма-Ата, 2002.
13. Джумаев, А.Б. Вопросы музыкальной эстетики в трудах Среднего Востока IX-XII веков.
14. Земцовский, И.И. Учение о форме аль-Фараби и актуальные вопросы анализа музыкальной формы // Сб. статей. бр.2. Нови Сад., 1987.
15. Фролов, Д.В. Классический арабский стих: история теория аруда. – Москва: Наука, 1991.

## Формирование музыкальной культуры в исламском Возрождении

**Эльмира Ахундова**
Доктор философии по искусствоведению

**Резюме.** В статье говорится о стремительно развивающихся научных знаниях в эпоху исламского Возрождения и вступивших на историческую арену произведениях по философии, математике, астрономии, музыкальному искусству, опирающихся на античную культуру. В те годы это являлось начальным отражением научных источников, входящих в теорию «арабоязычной» литературы музыкального искусства, началом распространения на Ближнем и Среднем Востоке научных источников музыкального искусства. Хотя многие создатели теории музыки не являлись коренными арабами, каждый из них – аль-Фараби (IX-X вв.), аль-Исфагани (X в.), Сефиаддин Урмави (XIII в.), аль-Марагаи (XIV-XV вв.) являлся ярким представителем исламской культуры в этом храме искусства. В X столетии, в соответствии с временем, смена направлений философских понятий исламских учёных в музыкальном мире сопровождается обновлением их взглядов и мнений.
**Ключевые слова:** исламское Возрождение, музыкальная культура, материально-нравственные ценности